**Moşe Dayan**

# İNCİLLƏ YAŞANAN ÖMÜR

Tərcüməçi:
İbrahimxəlil Balayoğlu

qanun nəşriyyatı

Moshe Dayan

# LIVING WITH THE BIBLE

İsrailin hərbi və dövlət xadimi Moşe Dayan "İncillə yaşanan ömür" kitabında yəhudilərin ilan mələyən səhralıqlarda, İncildə adı çəkilən məkanlarda hansı çətinliklərdən keçərək yurd salmalarından, güclü İsrail ordusunun formalaşmasından, sağ qalmaq üçün dörd tərəflərini saran düşmənlərlə qeyri-bərabər döyüşlərdən bəhs edib. İncilə tez-tez istinad edən müəllif İsrail torpaqlarının yəhudilərə aid olmasını bu müqəddəs kitabda yazılanlarla sübut etməyə çalışıb.

Moşe Dayan İsrailin müstəqilliyi uğrunda mübarizədə müstəsna xidmətlər göstərib, komandan kimi düşmənə qarşısıalınmaz zərbələr endirməklə xalqın yaddaşında da yenilməz qəhrəman kimi qalıb. O, müxtəlif illərdə İsrailin kənd təsərrüfatı naziri, müdafiə naziri, xarici işlər naziri vəzifələrində çalışıb.

**Moshe Dayan LIVING WITH THE BIBLE**
**Moşe Dayan İNCİLLƏ YAŞANAN ÖMÜR**
Bakı, Qanun Nəşriyyatı, 2023, 224 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 28.03.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | İbrahimxəlil Balayoğlu |
| Redaktor: | Ramin Paşazadə |
| Korrektorlar: | Aytən Şamil,<br>İradə İslamova |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Mürsəl Qasımov |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-566-3

© Qanun nəşriyyatı, 2023
© William Morrow & New York, 1978

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları QANUN nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununa ziddir.

# MOŞE DAYAN HAQQINDA

## BAŞLANĞIC

*“Sabra” nəslinin təmsilçisi Moşe Dayan İsrailə 1956-cı və 1967-ci il müharibələrində qələbə gətirmiş sərkərdədir*. İsraillilərin yaşlı nəsli 1948-ci ildəki birinci İsrail-ərəb müharibəsi zamanı (yəhudilər onu “Müstəqillik uğrunda müharibə” adlandırırlar) onun uğurlarını yaxşı xatırlayırlar. O, inadla öz baxışlarını müdafiə edən soyuqqanlı, qətiyyətli rəhbər, mərd və ciddi döyüşçü kimi tanınır. Moşe Dayan, əslində bir mənalı qəbul olunacaq birisi deyil, o, yüksəlişlər və sərt enişlər yaşamış mürəkkəb insandır.

Dayanın valideynləri Şərqi Avropadan gələn ilk köçkünlər arasındaydı. Ata – Şmuel Dayan (Kitayqorodskiy) Fələstinə 1908-ci ildə gəlmişdir. O, 1911-ci ildə Dqaniyada (kibbus), Qaliley dənizinin cənub istiqamətindən gəlməmişdən iki il əvvəl təşkil olunmuş ictimai fermada muzdlu işçi olaraq çalışıb. Bu, Erets-İsraildə 11 üzvü olan ilk kibbus idi. Sonralar Şmuel Dayan MAPAİ partiyasının liderlərindən biri, I-III çağırış Knessetin (parlamentin) deputatı olacaqdı.

Dayanın anası – Debora (qızlıq soyadı Zatulovskaya) Rusiyadan Fələstinə Dqaniyanın üzvlərindən birinə

ünvanlanan zəmanət məktubu ilə gəlmişdi. Lakin qadın, o qədər cəlbedici və təhsilliydi (sonralar Fələstində qadın fəhlə hərəkatının rəhbərlərindən biri olacaqdı) ki, kibbus onun üçün çox balaca oldu. Onun üzvlük haqqında ərizəsini geri qaytardılar və o, başqa yəhudi yaşayış məskənində özünə iş tapdı.

1915-ci ildə Debora Şmuel Dayana ərə getdi. Bu cütlük sonradan Moşenin də doğulduğu Dqaniyaya yalnız toydan sonra qəbul olundu. O, ilk İsrail kibbusunda dünyaya gələn ilkin uşaq idi.

Belə deyirlər ki, uşaqlıqda zəif olan Moşe atasından xaraktercə gizlilik və qapalılıq kimi əlamətlər qazanmışdı. Qeyri-adi ağıl sahibi, güclü və parlaq şəxsiyyət olan anasından isə o, intellektual keyfiyyətlərinin önəmli hissəsini əxz etmişdi.

Şmuel Dayan 1921-ci ildə yeni, Naxalal yaşayış məskənini təşkil etmiş kiçik çılğınlar qrupunun üzvlərindən biri idi. Onlar kibbusun ciddi kollektivçiliyindən imtina etdilər, Naxalal hər ailənin öz evinin və kiçik həyətyanı sahəsinin olduğu, təsərrüfatının əsas hissəsini isə kooperativlərin təşkil etdiyi ilk eksperimental "moşav"a – kəndə çevrildi.

Moşenin uşaqlığı o qədər də ürəkaçan keçməmişdi. Dqaniyada, sonradan isə Naxalalda yaşayanlar kasıblıqla, miskin həyat şərtləri ilə, isti ilə, xəstəliklər ilə, əsasən də malyariya və traxoma ilə mübarizə aparırdılar. Atası daim "moşav" hərəkatının, Əmək partiyasının və Gistadrutun (Ümumi yəhudi zəhmətkeşləri federasiyasının) işləri ilə

məşğul idi. Anası isə fermada ağır işləri görməklə üç uşağını – Moşeni, onun bacısı Avivanı və Müstəqillik uğrunda müharibədə öldürülmüş kiçik qardaşı Zoharı, demək olar ki, tək başına böyütməyə məcbur olmuşdu.

Lap uşaq yaşlarından Moşe kənd məktəbinə getməyə və eyni zamanda da təsərrüfat işlərində ailəsinə kömək etməyə məcbur oldu. Həmin illərdə o, yaxın kəndlərdəki ərəblərlə tanış olaraq onlarla dostlaşdı və onların danışıq dilini elə səviyyədə öyrəndi ki, hətta bir çoxları, o, "ərəblər kimi düşünə bilir" deməyə başladı.

Naxalalda Ümumdünya sionist təşkilatının təşkil etdiyi ikiillik kənd təsərrüfatı məktəbində kurs keçərkən o, burada özünün gələcək həyat yoldaşı, Yerusəlimdən tanınmış bir vəkilin qızı, özündən iki yaş kiçik olan sinif yoldaşı Rut Şvarsla rastlaşdı. Onu da qeyd edək ki, onlar evlənmədən öncə birlikdə bir "əməliyyat" keçirmişdilər və bu vaxt 19 yaşlı Moşe göstərmişdi ki, ondan nəcib hərəkətlər də gözləmək olar. Rutun xahişi ilə Moşe, onun Almaniyadan qaçqın olan yəhudi rəfiqəsi ilə saxta nikaha girdi. "Əməliyyat"ın məqsədi həmin qıza Fələstin pasportu almağa imkan vermək və bununla da, onun geriyə, Almaniyaya göndərilməsinin qarşısını almaqdan ibarət idi.

Bir il sonra "nikah" ləğv edildi. Rut və Moşe evləndilər. Rutun valideynləri gələcək generalın London akademiyasında oxuya bilməsi və dünyanı görməsi üçün onları İngiltərəyə göndərdilər. Lakin bu təşəbbüs uğursuz oldu. Moşe ingiliscə pis danışırdı, o, çətinliklə əlaqələr

yarada bilirdi, iqlim və vərdiş etmədiyi paltarlar: pencək, qalstuk, sandal yerinə çəkmə geyinmək onun xoşuna gəlmirdi.

Bir neçə ay sonra gənc ailə Fələstinə geri döndü.

***Məhz bu vaxt 1936-1939-cu il ərəb üsyanı başladı.***

## "HAQANA"YA GEDƏN YOL

*Dayan hələ yeniyetməykən Haqananın (ivrit dilindən tərcümədə – "müdafiə") – Böyük Britaniyanın Fələstin üzərindəki mandatının qüvvədə olduğu dövrdə fəaliyyət göstərən silahlı yəhudi dəstələrinin fəal üzvü olmuşdu.* O, 12 yaşından tüfəngdən istifadə edə bilir, yaşayış yerlərinin bədəvilərin basqınından qorunmasında iştirak edir, on dörd yaşından isə gecə gözətçiliyinə gedirdi.

O dövrlərdə Haqanaların ingilis mandat hakimiyyət orqanları ilə münasibətləri mürəkkəb idi. Onların üzvləri üsyan zamanı ingilislərlə birlikdə ərəblərə qarşı vuruşsalar da, əslində Haqanalar qeyri-leqal, gizli hərbi birləşmələr idi. Dayan İraq neft kompaniyasının Fələstindən Hayfa neftayırma zavodlarına qədər gedən həyati önəm daşıyan neft kəmərinin mühafizəsilə məşğul olan ingilis patrulları ilə əməkdaşlıq edən xüsusi yəhudi mühafizə dəstələrində xidmət edirdi.

1938-ci ildə Şotland zabiti, artilleriya kapitanı Çarlz Ord Vingeyt Haqanadan könüllülər qrupu toplamağa və Livan ərazisindən soxulan silahlı ərəb dəstələrinə qarşı quzey sərhədlərində onlardan istifadə etməyə icazə aldı. Dayan və İsrailin digər gələcək sərkərdələri gecə keşik

növbələrində misilsiz dərslər aldılar: diribaşlıq, qəfil pusquların təşkil edilməsi, sürətlə gecə yerdəyişmələrinin edilməsi belə dərslərdən idi.

1939-cu ildə nəşr olunmuş "Ağ kitab" faktiki olaraq Böyük Britaniyanın Yəhudi milli evinin yaradılmasına yönələn siyasətini yekunlaşdırırdı. Eyni zamanda İngiltərənin siyasi kursu ərəblərin lehinə istiqamətlənməyə başlamışdı. İngiltərə artıq Haqananın mövcudluğuna göz yuma bilmirdi. Bu hərəkat yəhudilərin Fələstinə gəlməsinə qoyulan məhdudiyyətlərə açıq-aşkar itaətsizlik etdiyinə görə, mandat hakimiyyət orqanları belə qənaətə gəldilər ki, bu, əslində potensial yəhudi müqavimət hərəkatıdır.

Dayan özünümüdafiə dəstələrini icazə verilməyən silah növləri ilə davranmağı öyrətdiklərinə görə mandat hakimiyyət orqanları tərəfindən 1939-cu ilin oktyabrında, İkinci Dünya müharibəsi başlandıqdan sonra həbs olunmuş 43 Haqana döyüşçüsündən biri idi. Hərbi tribunal döyüşçülərdən birini ömürlük, qalanları isə on il müddətinə azadlıqdan məhrum etdi.

Akko şəhərinin həbsxanasında onlara canilər kimi münasibət göstərirdilər. Onların başlarını qırxıb, həbsxana paltarı verdilər, onlara ərəb yeməyi yedirdib məcburi işlərə cəlb edirdilər. Buna baxmayaraq, Dayan ruhdan düşmürdü və kamera yoldaşlarının sözlərinə görə, hətta şeir də yazırdı.

On altı ay sonra müttəfiqlərin Yaxın Şərqdə hərbi vəziyyəti pisləşdi. Alman generalı Rommel Misirə doğ-

ru irəliləyirdi. Suriya nasistlərlə əməkdaşlıq edən fransız Vişi hökumətinin əlində idi. Fələstinə alman qoşunlarının soxulması təhlükəsi var idi.

"Yişuv" (Fələstinin İsrail dövləti yaranana qədərki yəhudi əhalisi) heç nəyə baxmayaraq, İngiltərə tərəfində müharibəyə qoşuldu və bütün gücünü bura yönəltdi. 1941-ci ilin fevralında bütün məhbuslar azad olundu.

Üç ay sonra Dayan Haqana formalaşdırmaq və 31 nəfərdən ibarət könüllü qrupuna başçılıq etmək əmri aldı. Onlara ingilislərin hücumuna hazırlıq məqsədilə Suriyada kəşfiyyat aparılması tapşırıldı. Qrupun üzvləri qoşunlar üçün bələdçi olmalıydılar. 8 iyul 1941-ci ildə Dayan kiçik ön qrupla sərhədi keçdi. Onlar polis postunu tutdular, lakin fransızların ağır atəşi altına düşdülər. Dayan öldürülmüş fransız zabitinin durbinindən istifadə edərək, evin damından atəş nöqtəsini axtararkən, ona açılan güllə linzanı qırdı və qəlpələr onun sol gözünə batdı.

Onu altı saat sonra evakuasiya edə və Hayfadakı hospitala çatdıra bildilər. Cərrahlar şüşə və metal qalıntılarını təmizləyib göz dəliyini tamamən bağladılar. Dayanın gözündəki, sonralar bütün dünyada məşhurlaşan, döyüşkən İsrailin özünəməxsus rəmzinə çevrilən və qərəzli karikaturların xarakterik detalına dönmüş qara sarğı belə yaranmışdır. Dayan üçün isə bu, Haqanadakı aktiv fəaliyyətinin sonunda əzablı müalicə və beyni ilə bağlı problemlər demək idi.

Hospitaldan çıxdıqdan sonra, Dayan qərargah işinə göndərildi. Haqananın ilk komandiri İshaq Sadeylə

birlikdə o, alman ordusunun Misir üzərindən mümkün basqınına qarşı Fələstinin yəhudi əhalisinin müdafiəsinə hazırlıq məsələləri ilə məşğul olurdu. Fələstinin alman işğalı halında istifadə edilməsi nəzərdə tutulan və Haqana komandanlığından müstəqil olaraq fəaliyyət göstərən gizlin radio şəbəkəsinin yaradılması ideyası da ona məxsus idi. Bu ideya qəbul edilmişdi.

Onun həyata keçirilməsinə hazırlıq zamanı Dayan Böyük Britaniyanın Yaxın Şərqdəki hərbi kəşfiyyatı ilə sıx əlaqələr qurdu. Bu, sonralar ingilislərlə, o cümlədən Haqananın xüsusən maraqlı olduğu işğal olunmuş Avropa ərazisində kəşfiyyat sahəsində əməkdaşlığın təşkil olunmasına kömək etdi.

1942-ci ildə, El-Alameyn və Stalinqrad məğlubiyyətlərindən sonra Ox ölkələrinin Fələstinə girməsi təhlükəsi azaldı. Dayan Naxalala geri döndü və əkinçiliklə məşğul olmağa başladı. Lakin 1947-ci ildə ərəblərlə mübarizə kəskinləşdikdə və yəhudi dövləti elan olunduqdan sonra başlana biləcək müharibəyə hazırlıq gücləndikdə o, Haqanadakı xidmətə geri döndü. İshaq Sade ona artilleriya və zirehli qoşun hissələrini yaratmağı tapşırdı.

1948-ci ilin mayında, birinci ərəb-İsrail müharibəsinin başlanğıcında suriyalılar Dqaniyanı mühasirəyə aldıqda, Dayanın üzərinə (özünün xahişi ilə) müdafiə olunan hissələrə komandanlıq vəzifəsi qoyuldu. O, suriyalıların hücumlarını dəf etdi və onların basqınlarına son verdi. Moşe Dqaniyadan mərkəzi cəbhəyə döndü və Ramle ilə Liddanı tutan hissələrə komandanlıq etdi.